Ədalət .- 2024.- 15 noyabr(№47).-S.7.

# GÖYÇAY: DAHA BÖYÜK UĞURLARIN SORAĞINDA...





**Vətən müharibəsindəki Böyük Qələbəmizin təntənəsi, yalnız irəliyə olan ədalətli yolumuzun işığında ölkəmizin daha da böyük inkişafı bizi hədsiz ruhlandırır. Düşmənin viran qoyduğu Qarabağımızda yeni quruculuq işlərinin heyrətamiz dinamikası, doğma torpaqlara kiçik və böyük köçlərin davam etməsi bütün dünyanın diqqət mərkəzindədir. Heyrətamizdi! İndiki mürəkkəb geosiyasi vəziyyətdə respublikada bütün sosial proqramların uğurla həyata keçirilməsi reallığı əks etdirir və sevinc doğurur. Eyni zamanda ölkəmizdə 11-22 noyabr tarixlərində COP 29 qlobal iqlim konfransının keçirilməsi Azərbaycan Respublikasının gündən-günə artan reytinqi, cənab Prezidentimizin beynəlxalq nüfuzunu bir daha təsdiqləyir və bütün məsələlərdə bizim haqlı olduğumuzu göstərir.**

Qazanılan uğurların müntəzəm xarakter alması Göyçay rayonunun da həyatında xarakterik olaraq öz əksini tapmaqdadır. Bütün bunlar rayonun stabil inkişafından xəbər verir. Son dövrlər artıq Göyçayın istər mərkəzində - Göyçay şəhərində, istərsə də yaxın-uzaq bütün kəndlərində ürəkaçan təsərrüfat və quruculuq işləri uğurla davam etməkdədir. Şəhər və kəndlər eyni qayğı və diqqət sayəsində müasir yaşayış məkanlarına çevrilməkdədir. Yeni yollar, yeni tikililər, park və bağlar, digər sosial və mədəni tərəqqi... Bu mənada rayon mərkəzinin mövcudluğundan bəri öz ənənələri üzərindən büsbütün müasirləşməsi də inkişafın təntənəsini təsdiqləyir.



Rayon rəhbərliyi yorulmadan yüksəlişə doğru əlavə imkanlar axtarışındadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin istək və tələblərinə bütün istiqamətlər üzrə yüksək səviyyədə əməl olunur. Xalqla iqtidar birliyi Göyçay rayonunun mənəvi simasıdır. COP 29 tədbirlərinin Azərbaycanda keçirilməsi göyçaylıları da qürurlandırır və bu istiqamətdə gələcəyimiz üçün, planetimizin qorunub çiçəklənməsi üçün öz töhvələrini verməyə ruhlandırır.

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev işgüzar və prinsipial rəhbər işçi olmaqla yanaşı, həm də səmimi bir insandır. Bu keyfiyyətlər onun nüfuzunu daha da artırır, sakinlərə daha da yaxınlaşdırır. Və bütün bunların da nəticəsində rayonda yüksək səviyyəli sağlam mühit formalaşır. Elə cənab Prezidentimiz İlham Əliyevin dediyi kimi: "Ölkəmiz beynəlxalq aləmdə layiqli yerini tuta bilmişdir. Daxildə proseslər müsbət istiqamətdə getmişdir. İslahatlar aparılmış, böyük nailiyyətlər əldə edilmişdir. Biz hamımız Ulu Öndərin siyasi xəttinə sadiqik, bu xətti davam etdiririk..."

Zəfər bayramı və Azərbaycan Bayrağı Günü respublikamızın hər yerində olduğu kimi Göyçay rayonunda da böyük təntənə və qürurla qeyd olundu.

Rayon sakinləri və qonaqlar həmin günləri ən əziz və şirin anlar kimi yaşadı. Bayram-bayrama qarışdı, sevinc-sevincə qarışdı... Hamı təbəssümlə, qürur hissi ilə salamlaşıb təntənəli günlərin sevincini bölüşdü.

... Və beləcə Göyçay rayonunda vaxt bu günün və gələcəyin xeyirinə işləməkdədir. İnsanlar bütün bunların yüksək səviyyədə davam etməsinin fərqindədirlər. Bu səbəbdən də rayon rəhbərliyinin yerlərdə keçirdiyi səyyar qəbulları zamanı birgə məsləhətləşmələr, daha uğurlu inkişaf yollarının axtarışı, real təklif və arzular yetərincə səmərəli olub inkişafın stimullaşmasını saxlayır. Rayonda şəhid ailələrinə, qazilərə yüksək həssaslıq göstərilməsi yaxşı haldır. Bütün məsələlərə böyük ciddiyyətlə yanaşılır. Rayon rəhbərliyinin bu istiqamətdəki fəaliyyəti yüksək qiymətləndirilir.

Göyçayda mədəni-kütləvi tədbirlərə də xüsusi həvəs və diqqətlə yanaşılır. Kitab və rəsm sərgiləri, disputlar, müxtəlif idman yarışları, ədəbi tədbirlər... Bu tədbirlərin bəziləri Rəsul Rzanın Ev-Muzeyində keçirilir.

Şəhid bacısı olan muzeyin direktoru Solmaz xanım Həsənovanın təşəbbüsü və təşkilatçılığı ilə keçirilən bu tədbirlər onun əməkdar mədəniyyət işçisi adına layiq olduğunu bir daha təsdiqləyir. Əksərən də Rəsul Rzanın Ev-Muzeyində.

Bütün bunlar çox vacib məsələlərdir. Gənclərin, məktəblilərin, hətta orta yaşlı adamların da üz tutduqları mədəni-kütləvi tədbirlər rayonda stabilliyə, xoş niyyətli işlərə də dəstək olur.

Gözardı edilәsi məsələ deyil. Rayonda ağır cinayətlərin azalması, cinayətkarlığa qarşı mübarizədə əldə olunan nəticələr sabitliyə xüsusi önəm verilməsinin nəticəsidir. Rayon polis şöbəsi rəhbərliyinin yerlərdə keçirdiyi görüşlər, eyni zamanda profilaktiki tədbirlər zamanı ictimaiyyətlə müntəzəm əlaqələrin qurulması uğurlu nəticələr qazandırır. Bu tədbirlər rayon polis şöbəsinin rəisi polkovnik Müqabil Abdinova rayonda böyük hörmət gətirir. Polisin bütün vətəndaşların üzünə açıq olması, sakinləri hörmətlə qəbul edərək onların müraciətlərinə həssaslıqla yanaşması inam və etibarı artırmaqla yanaşı sabitliyin təmin edilməsində çox böyük rol oynayır. Eləcə narkomaniya ilə mübarizədə əldə olunan nəticələr sadə statistika deyil. Gecəli-gündüzlü gərgin əməyin, profilaktik tədbirlərin effektiv nəticələridir. Göyçay polisinin bu nümunəsi bütövlükdə Azərbaycan polisinin vətənə və xalqa sədaqətli xidmətinin real göstəricisidir.

**Beləcə, Göyçay daha böyük yüksəlişin, daha gözəl günlərin sorağındadır...**

**Məzahir ƏHMƏDOĞLU**



